# Uğurla həyata keçirilən "yaşıl enerji" strategiyası

***Regionların sosial-iqtisadi inkişafına yönəldilən Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlərdən biri də yeni generasiya güclərinin yaradılmasıdır. Məhz bunun nəticəsidir ki, ötən əsrin 90-cı illərində xaricdən elektrik enerjisi alan Azərbaycan bu gün onun ixracatçısına çevrilib. Dövlət başçımız bundan sonra da ölkənin enerji təminatı sahəsində heç bir dövlətdən asılı olmayacağını bəyan edib. Bu məqsədlə respublikanın elektrik enerjisi sistemi daha da gücləndirilir və təkmilləşdirilir. Enerji sisteminin etibarlılığının təmin edilməsi üçün mükəmməl infrastrukturun yaradılması istiqamətində həyata keçirilən tədbirlər ölkənin sosial-iqtisadi inkişafına böyük təkan verir. Bu işlər geniş miqyası və mühüm əhəmiyyəti ilə seçilir.***

Prezident İlham Əliyevin dediyi kimi: "Harada elektrik enerjisi varsa, orada inkişaf da var". Bir-birinin ardınca işə salınan yeni stansiya və yarımstansiyalar da bu inkişafa xidmət edir. Məhz bunun nəticəsidir ki, ölkəmizdə 10 ay ərzində bərpaolunan enerji istehsalı 80 faizdən çox artıb. Bu ilin yanvar-oktyabr aylarında bərpaolunan enerji mənbələrində istehsal edilən elektrik enerjisinin həcmi rekord həddə çatıb. Bu dövr ərzində respublika üzrə 23,8 milyard kVt/st elektrik enerjisi istehsal edilib ki, onun təxminən 3,4 milyard kVt/st-ı "yaşıl enerji" mənbələrinin payına düşür. Bərpaolunan enerji portfelində ilk güc "yaşıl hidrogen" və ya su elektrik stansiyalarının (SES) üzərində cəmləşib. SES-lər tərəfindən 2,6 milyard kVt/st-a yaxın enerji istehsal olunub ki, bu, son illərin ən yüksək göstəricisidir. Külək elektrik stansiyalarında 44,8 mln. kVt/st, günəş elektrik stansiyalarında 515,3 mln. kVt/st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 192,2 mln. kVt/st elektrik enerjisi istehsal edilib.

Müqayisə üçün qeyd edək ki, 2023-cü ilin yanvar-oktyabr aylarında "yaşıl güclər" üzrə istehsal həcmi 1,9 milyard kVt/st idi. Bu il isə "yaşıl enerji" mənbələri üzrə elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1,5 milyard kVt/st artırılıb.

Hazırda "yaşıl enerji"nin payı ölkə üzrə ümumi enerji balansında 15 faizi ötür. Bu, respublikada bərpaolunan enerji sahələrinin hər birində dayanıqlı artımı göstərir və yaxın 5 il ərzində "yaşıl enerji" gücünün enerji istehsalında 25 faizi ötəcəyini əsaslandırır. Bu baxımdan, dövlətimizin 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin payının 30 faizə çatdırmaq hədəfi daha tez gerçəkləşə bilər. Yaxın 6-7 ildə bərpaolunan enerji istehsalının təxminən 5 milyard Kvt/st-a çatacağı proqnozlaşdırılır ki, bu da enerji hasilatının təxminən 34 faizi deməkdir.

Qeyd edək ki, Azərbaycanın "yaşıl enerji" potensialı qiymətləndirmələrə əsasən, quruda 135, dənizdə 157 QVt-dır. Qarabağ və Şərqi Zəngəzur bölgəsində hidroenerji, külək və günəş enerjisi, termal su mənbələrinin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin texniki potensialının 2000 MVt həcmində olduğu proqnozlaşdırılır. Hidroenerji ehtiyatlarına görə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur. İndiyə qədər bu ərazilərdə bir neçə kiçik su elektrik stansiyası inşa edilərək istifadəyə verilib, digər hidrogen infrastrukturlarının yaradılması işləri davam etdirilir.

Ölkəmizdə bərpaolunan enerji istehsalında davamlı artım, külək və günəş enerjisi üzrə yüksək hasilat xarici investorların marağına səbəb olur. Bu baxımdan, son 2 ildə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın "bp", Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalanıb. Bundan başqa, Azərbaycanda Dünya Bankı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) kimi beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələr həyata keçirilir. AYİB 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının inşasına kreditlər ayıracaq. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti ilə maliyyə tutumu 1 milyard ABŞ dolları olan müqavilələrin imzalanması isə "yaşıl enerji" sahəsində böyük uğurdur. Bu, çoxhəcmli investisiyalar üçün əsaslı zəmin yaradır. Həmin sərmayə proqramının davamı kimi digər potensial investorlarla daha iritutumlu "yaşıl sərmayələr"in qoyuluşuna dair ilkin razılaşmalar da əldə edilib. Buna misal olaraq, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti qarşıdakı illərdə ölkəmizin "yaşıl güc"lərinə 5 milyard ABŞ dollarına yaxın investisiya yatırmaq niyyətini bəyan edib. "Yaşıl enerji"nin ixracını təmin edəcək "Mərkəzi Asiyah-Xəzər-Qara dəniz-Avropa" dəhlizinin yaradılması ilə bağlı niyyət protokolu imzalanıb. Dövlətimiz bərpaolunan enerji gücünü yaxın 10 ildə ən azı 4 dəfə artırmaqla bu dəhlizlə 4 Gvt gücündə "yaşıl enerji"ni ixrac edə biləcək.

Bərpaolunan enerji layihələrinə xarici investorların böyük həcmli sərmayələr yatıracağına dair ümidlər böyükdür. COP29 çərçivəsində keçirilən plenar iclaslarda aparıcı maliyyə institutlarının və nüfuzlu xarici investorların nümayəndələrinin çıxışları və dövlətimizlə imzaladıqları niyyət sazişləri bunun əyani göstəricisidir. Həmçinin COP29 konfransında ilk bərpaolunan enerji hərracının keçirilməsi və xarici investorlardan birinin qalib elan olunması bu sahədə həmrəyə böyük təkan verəcək.

COP29 çərçivəsində imzalanan "İqlim, İnnovasiya və Ticarət üzrə CAREC Tərəfdaşlığına dair Bakı Bəyannaməsi" üzv ölkələr arasında yeni hədəflərin gerçəkləşməsində, o cümlədən sosial, iqtisadi və ekoloji sahələrdə təşəbbüslərin dəstəklənməsində əlaqələndirici platformanı formalaşdıracaq. Sənəd "yaşıl prinsiplər"ə çatmaqda bir sıra texniki-hüquqi proderların təkmilləşdirilməsinə, yeni fəaliyyət çərçivəsinin müəyyənləşməsinə və nəticədə birgə qarşılıqlı əlaqələrin güclənməsinə böyük töhfə verəcək, ticari və investisiya bloklarında rəqəmsal mübadilələri tənzimləyəcək. Bu isə dövlətimizin "yaşıl enerji" sektorunun investisiya imkanlarını daha da artıracaq.









**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika .- 2024.- 10 dekabr (№ 272).- S.9.